

# BMT-də Azərbaycan həqiqətləri

**Prezident İlham Əliyev dünyanın ən ali tribunasından ölkəmizin strateji mövqeyini bildirdi, gələcək hədəflərini göstərdi.**

Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 80-ci sessiyasında etdiyi çıxış Azərbaycanın beynəlxalq münasibətlərdəki mövqeyini, regional təhlükəsizlikdəki rolunu və qlobal miqyasda formalaşdırdığı yeni əməkdaşlıq modelini nümayiş etdirdi.

Bu çıxış həm siyasi, həm də iqtisadi aspektlərdə Azərbaycanın gələcək inkişaf trayektoriyasını müəyyənləşdirən strateji mesajlarla zəngin idi. Dövlət başçısının irəli sürdüyü prioritetlər təkcə regional maraqlara deyil, eyni zamanda beynəlxalq müstəvidə davamlı inkişaf və bərabərhüquqlu tərəfdaşlıq prinsipinə əsaslanırdı.

Prezidentin çıxışında ən mühüm məqamlardan biri Azərbaycanın regionda sülhün və sabitliyin təminatçısı qismində çıxış etməsi ilə bağlı idi. Ölkəmiz münaqişələrdən sonra yaranmış yeni reallıqlar fonunda dayanıqlı sülhə nail olmaq üçün siyasi iradə ortaya qoyub. Bu yanaşma Azərbaycanın beynəlxalq hüquqa hörmət və beynəlxalq öhdəliklərə sadiqlik prinsipinə əsaslanan dövlət siyasətinin bariz nümunəsidir. Azərbaycanın regional təşəbbüsləri təkcə Cənubi Qafqazla məhdudlaşmır, eyni zamanda daha geniş coğrafiyada əməkdaşlıq mühitinin formalaşdırılmasına xidmət edir.

Çıxışın mühüm istiqamətlərindən biri də Azərbaycanın iqtisadi inkişaf modelinə dair təqdim edilən geniş baxış idi. Ölkəmiz postmünaqişə dövründə iqtisadiyyatının diversifikasiyasına və qeyri-neft sektorunu inkişaf etdirməyə xüsusi önəm verir. Azərbaycanın artıq beynəlxalq enerji bazarındakı etibarlı tərəfdaş mövqeyi ilə yanaşı, yeni enerji mənbələrinin, xüsusilə də bərpaolunan enerji layihələrinin təşviqinə yönələn siyasəti dünya ictimaiyyətinin diqqətinə çatdırıldı.

Azərbaycanın enerji təhlükəsizliyi müstəvisində bərpaolunan enerji mənbələri xüsusi rol oynayır. Ölkəmizin yerləşdiyi coğrafi mövqe də buna geniş imkanlar yaradır. 2030-cu il üçün olan enerji prioritetində bərpaolunan enerjinin kəmiyyəti enerji istehsalımızın 40 faizini təşkil etməsi digər ölkələrə nümunədir. Bu istiqamətdə cəlb olunan sərmayənin miqdarı hər il daha da artır. Bu, Azərbaycanda olan əlverişli investisiya mühitinin nəticəsidir. Dövlət başçısının çıxışında qeyd etdiyi kimi, çox güclü xarici balans, aşağı dövlət borcu və suveren fondun böyük aktivləri əsas güclü tərəflər kimi göstərilməklə aparıcı beynəlxalq reytinq agentlikləri olan "Moody's" və "Fitch" Azərbaycanın reytinqini artırıb. Bütün bunların fonunda yoxsulluğun və işsizliyin müstəqillik illərindəki ən minimum həddə - 5 faizə düşməsi ölkəmizin iqtisadi inkişafının təntənəsi olmaqla əldə olunmuş böyük nailiyyətlərdən biridir.

Prezidentin çıxışında vurğuladığı mühüm məqamlardan biri də Azərbaycanın təbii qazının beynəlxalq bazarlara çatdırılmasında oynadığı strateji roldur. Hazırda ölkəmiz boru kəmərləri vasitəsilə qaz təmin edən dövlətlər arasında lider mövqedədir və bu ixrac fəaliyyətində 14 ölkə müntəzəm olaraq təchiz edilir. Azərbaycan qazının əhəmiyyətli hissəsi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə xidmət edir və eyni zamanda təchizat marşrutlarının şaxələndirilməsinə töhfə verir. Xüsusilə "Cənub qaz dəhlizi" layihəsi ilə İtaliya və digər Avropa ölkələrinə qaz çatdırılması, həmçinin TANAP və TAP boru kəmərləri ilə qazın təhlükəsiz və davamlı şəkildə daşınması ölkəmizin enerji diplomatiyasını gücləndirir. Eyni zamanda Azərbaycan qazının ixracı regional enerji əməkdaşlığının inkişafına töhfə verərək qonşu ölkələrlə strateji tərəfdaşlıq əlaqələrini möhkəmləndirir.

Prezident İlham Əliyevin Xəzər dənizində ətraf mühitin pozulmasına çəkdiyi diqqət də təqdirəlayiqdir. Dünyanın ən böyük gölü olan Xəzərin səviyyəsi son illərdə aşağı düşməkdə davam edir. Xəzər dənizinin sahəsinin artıb-azalması dövri olaraq baş versə də, son illərdə suyun səviyyəsinin aşağı düşməsinin səbəbi iqlim dəyişməsi deyil. Xəzər dənizinə tökülən ən böyük çay Volqa çayıdır. Bu çay Avropanın ən bolsulu çayı olmaqla yanaşı, Xəzərə tökülən şirin suyun təxminən 80 faizini özündə cəmləşdirir. Çayın üzərində çox sayda hidroqovşaqlar və su anbarlarının tikilməsi və suvarmada geniş istifadə edilməsi nəticəsində su tam həcmdə Xəzər dənizinə tökülmür. Nəticədə Xəzərin səviyyəsi aşağı düşür.

Xəzər dənizinin potensialı Avropa və dünya bazarları üçün strateji əhəmiyyət daşıyır və ətraf mühitin bərpa edilməsi sahəsində atılan addımlar gələcəkdə enerji təhlükəsizliyinin təmin edilməsində həlledici rol oynaya bilər. "Şərq-Qərb" nəqliyyat dəhlizinin və "Rəqəmsal İpək yolu" kimi qlobal əhəmiyyətli layihələrin burdan gerçəkləşməsi Xəzər dənizində gözlənilən ekoloji faciənin qarşısının alınması istiqamətində dövlət başçısının verdiyi mesajlar dünya ictimaiyyətinə çatdırıldı.

Azərbaycanın iqtisadi prioritetlərdən biri də nəqliyyat-logistika infrastrukturunun genişləndirilməsidir. Azərbaycan Şərqlə Qərb, Şimalla Cənub arasında mühüm tranzit ölkə kimi öz rolunu daha da gücləndirmək niyyətindədir. Prezident çıxışında xüsusilə Orta dəhlizin və "Şimal-Cənub" nəqliyyat dəhlizinin inkişafı ilə bağlı konkret faktlara istinad etdi. Bu layihələr yalnız Azərbaycan iqtisadiyyatına əlavə gəlirlər gətirmir, həm də qlobal ticarətin dayanıqlılığına və beynəlxalq əməkdaşlığın dərinləşməsinə mühüm töhfə verir. Bu kontekstdə Prezidentin çağırışları Azərbaycanın beynəlxalq iqtisadi şəbəkələrdə mühüm tərəfə çevrilməkdə olduğunu təsdiqlədi.

BMT Baş Assambleyasının 80-ci sessiyasında Prezident İlham Əliyevin səsləndirdiyi tezislər Azərbaycanı həm siyasi, həm də iqtisadi baxımdan qlobal miqyasda güclənən və yeni əməkdaşlıq formatlarını təşviq edən dövlət kimi təqdim etdi. Dövlət başçısının çıxışı Azərbaycanın beynəlxalq arenada milli maraqlarını qətiyyətlə müdafiə etməklə yanaşı, qlobal təhlükəsizlik, enerji sabitliyi və iqtisadi inkişaf proseslərinə də mühüm töhfə verdiyini bir daha nümayiş etdirdi. Bu çıxış həm region ölkələri, həm də beynəlxalq ictimaiyyət üçün aydın mesaj idi: Azərbaycan sülhün, əməkdaşlığın və dayanıqlı inkişafın təminatçısı kimi öz rolunu davam etdirmək əzmindədir.

Nəticə etibarilə, Prezident İlham Əliyevin BMT Baş Assambleyasındakı çıxışı Azərbaycanın beynəlxalq arenadakı siyasi mövqeyinin ifadəsi olmaqla yanaşı, iqtisadi vizyonunun da aydın şəkildə təqdimatı idi. Dövlət başçısının səsləndirdiyi fikirlər bir daha göstərdi ki, Azərbaycan yalnız münaqişədən çıxan dövlət kimi deyil, həm də dayanıqlı inkişaf və regional əməkdaşlıq mərkəzi kimi çıxış etmək niyyətindədir. Bu çıxış həm ölkə daxilində iqtisadi inkişafa stimul verən, həm də beynəlxalq tərəfdaşlıqlara yeni nəfəs gətirən siyasi bəyanat kimi dəyərləndirilə bilər.

***Mirtəhmasib RƏHİMOV,***
***Lerik rayonu***

Azərbaycan.-2025.- 2 oktyabr (№ 211).- S.9.